# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

**Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır.**

**İlham Əliyev.**

(Əvvəli 6-cı səhifədə).

Münsiflərin rəyi əsasında ən yaxşı mürəbbə hazırlayanlar müxtəlif nominasiyalar üzrə mükafatlandırılmış, qaliblərə kubok, medal və qiymətli hədiyyələr təqdim olunmuşdur.

İl ərzində SEBA (Seul-Bakı) Azərbaycan Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının və Koreya Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə bir neçə tədbir keçirilmişdir. “Ariranq”- “Azərbaycanın qəlbini coşdur” adlı mədəniyyət festivalını, “Qəbələ arxeologiyası” mövzusunda beynəlxalq elmi seminarları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın iştirakı ilə vətənpərvərlik mövzusuna həsr olunmuş “Poeziya günü”nü və digər bu kimi tədbirləri buna misal göstərmək olar.

**Hörmətli tədbir iştirakçıları!**

2017-ci ildə Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin də sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq və regionlararası əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılmışdır. Hesabat dövründə Kolumbiya Respublikası xarici işlər nazirinin, Moldova xarici işlər naziri müavininin, İranın Qərbi Azərbaycan vilayəti valisinin, Avstriyanın və İsrailin Azərbaycandakı səfirlərinin, Monteneqronun Ali Məhkəməsi sədrinin, Koreyanın Qyonqçu şəhəri merinin, İsrailin Yokneam şəhəri merinin, Belarusun Qrodno şəhəri merinin, Polşanın Qnezno şəhəri merinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətləri, Rusiya Federasiyası Ədliyyə Nazirliyinin əməkdaşları, MDB-yə üzv dövlətlərin gömrük xidməti orqanlarının rəhbərləri şurasının hüquq-mühafizə bölmələri başçıları, ABŞ-ın Harvard Universitetinin bir qrup müəllim və tələbələri və III Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin iştirakçıları rayonumuza səfər etmişlər.

Səfər çərçivəsində qonaqlar rayonun tarix-mədəniyyət abidələri, sənaye müəssisələri, turizm, idman və sağlamlıq kompleksləri, Qəbələ Regional “ASAN xidmət” Mərkəzində yaradılmış şərait və iş prinsipi ilə yaxından tanış olmuşlar.

Müvafiq qaydada Qəbələ Rayon İcra Hakimiyyəti başçısının rəhbərlik etdiyi nümayəndə heyətləri Belarus Respublikasının Qrodno şəhərinə, Rusiya Federasiyasının Stavropol Diyarına dəvət olunmuş, orada keçirilən ölkələrarası və regionlararası forumlarda iştirak etmişlər. Bu səfərlər zamanı şəhər və vilayət rəhbərləri ilə müzakirələr aparılaraq, dostluq və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair sənədlər imzalanmışdır.



«Ölkəmizi tanıyaq» tur-aksiyası: Qəbələ məktəbliləri Quba rayonunda.

Eləcə də rayon icra hakimiyyəti başçısının birinci müavininin rəhbərliyilə rayonumuzda 13 yaşlı futbolçuların da daxil olduğu nümayəndə heyəti Koreya Respublikasının Qyonqçu şəhərinə səfər etmişdir.

Regionlararası əlaqələrin qurulması, mədəniyyət və turizm işinin genişləndirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində layihələr bundan sonra da müntəzəm olaraq davam etdiriləcəkdir

**Hörmətli tədbir iştirakçıları!**

Hazırda Qəbələdə 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Bu otellərdə bir gündə 2500-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Hesabat ilində Qəbələyə 250 minə yaxın turist gəlmişdir.

Cənab Prezidentin Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına dair konfransdakı nitqlərində qeyd olunduğu kimi Bakıdan sonra Azərbaycanın ikinci turizm mərkəzi olan Qəbələdə turizm infrastrukturunun genişləndirilməsi, inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülür, iri layihələr həyata keçirilir.

Turizmin inkişafı sahəsində görülən işlərin, yaradılan müasir infrastrukturun, göstərilən xidmətlərin nəticəsində regiona turist axını ildən-ilə artır.

Əvvəlki illərlə müqayisədə hesabat dövründə də rayonumuza turist gəlişinin sayında böyük artım müşahidə olunmuş, Qəbələ turistlərin maraq göstərdiyi cazibədar bir mərkəzə çevrilmişdir.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2017-ci il ərzində 69 tədbir keçirilmişdir. Bunlardan 37 tədbir gənclərlə iş sahəsini, 32 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir.

Beynəlxalq və respublika səviyyəli yarışlardan ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş ”Tour d'Azerbaijan-2017” Beynəlxalq Velosiped Turniri, “Şahin” hərbi idman oyununun zona mərhələsini, güllə atıcılığı üzrə kişilər və qadınlar arasında təşkil olunan zona yarışını, yeniyetmələr arasında cüdo və taekvondo idman növləri




«Ölkəmizi tanıyaq» tur-aksiyası: Göygöl məktəbliləri Tufandağda.

üzrə Qəbələ Açıq Turnirini, güllə atıcılığı üzrə 45 ölkədən 700-dək idmançının iştirak etdiyi Dünya Kuboku yarışlarını, ”Gənc xilasedici” V Beynəlxalq yarışı və ”Gənc xilasedici və yanğınsöndürən” VI ümumrespublika birinciliyinin final mərhələsini, “Wonderland 2017-Azerbaijan” Beynəlxalq Skaut Düşərgəsini, 132 ölkədən seçilmiş 320 nəfər nümayəndənin iştirakı ilə XIII Dünya Skaut Gənclər Forumunu və s. göstərmək olar.

Qəbələ Olimpiya İdman Kompleksi hesabat ilində idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması istiqamətində xeyli iş görmüşdür.

2017-ci il ərzində kompleksin xidmətlərindən 3006 nəfər gün istifadə olunmuşdur. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 1174 nəfər olmuşdur. Kompleksin xidmətlərindən 538 nəfər ödənişli, 636 nəfər ödənişsiz yararlanmışdır.

Kompleksdən ödənişsiz istifadə edənlər Olimpiya idman növləri üzrə fəaliyyət göstərən seksiyalarda məşğul olan idmançılardır. Qəbələ Olimpiya İdman Kompleksində 2 Olimpiya idman növü -sərbəst güləş və boks üzrə ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 53 nəfər məktəb yaşlı uşaq məşğul olur.

**Hörmətli tədbir iştirakçıları!**

Azərbaycan iqtisadiyyatı ildən-ilə güclənir. Yeni-yeni müəssisələr, zavod və fabriklər yaranır, turizm sahəsi genişlənir, kənd təsərrüfatı, tikinti sektoru sürətlə inkişaf edir. Bütün bunlar ixtisaslı fəhlə kadrların yetişdirilməsini də zəruri edir.

(Ardı 8-ci səhifədə).